**Pol Stretern**

# BERKLİ İLƏ 90 DƏQİQƏ

Tərcüməçi:

Zeynəb Azadlı-Rüstəmli

qanun nəşriyyatı

Paul Strathern

# BERKELEY IN 90 MINUTES

Kloyn yepiskopu Corc Berkli fəlsəfə tarixində subyektiv idealizm nəzəriyyəsinin banisi kimi tanınır. Bu nəzəriyyə maddi substansiyanın mövcudluğunu inkar edir. Onun fikrincə, adi obyektlər – məsələn, masa, stul kimi əşyalar şüurun qəbul etdiyi ideyalardır və ona görə də qavrayış olmadan mövcud ola bilməzlər.

Berkli duyğularımıza təsir edən və çevrəmizdə var olan maddi aləmi yuxu sayır. Kitab bizi Berkli fəlsəfəsinin məğzi ilə tanış edir, bu məşhur filosofun həyatını, fəaliyyətini, dövrünün və mühitinin yığcam mənzərəsini öyrədir.

**Paul Strathern** **BERKELEY IN 90 MINUTES**
**Pol Stretern** **BERKLİ İLƏ 90 DƏQİQƏ**
Bakı, Qanun Nəşriyyatı, 2024, 72 səh.

Janr: non-fiction/fəlsəfə/bioqrafiya
Ölçü: 120x185 mm
Cild: yumşaq
Çapa imzalandı: 04.05.2024

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Zeynəb Azadlı-Rüstəmli |
| Redaktor: | Cəlil Cavanşir |
| Korrektorlar: | İradə İslamova,<br>Ülviyyə Eminova |
| Texniki redaktor: | Aydın Səlimli |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-956-2

© Qanun Nəşriyyatı, 2024
© Chicago: Ivan R.Dee, 2000

Bu kitabın Azərbaycan dilinə tərcümə və
yayın hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Azərbaycan Respublikasının Qanununa ziddir.

**Mündəricat**

Giriş ........................................................................6

Berklinin həyatı və əsərləri ..............................11

Berklinin əsərlərindən .......................................61

Berklinin həyatının xronologiyası ..................68

## Giriş

Corc Berklinin fəlsəfəsi bir çoxlarına məzəli görünür. Onun əsərlərini ilk dəfə oxuyanda, absurd hesab edirsiniz. Əslində də məhz belədir. Berklinin fəlsəfəsi materiyanın mövcudluğunu qəbul etmir. Ona inansaq, material dünya mövcud deyil.

Müasir fəlsəfənin əsasını XVII əsrdə fransız mütəfəkkir Rene Dekart qoyub. Dekart iddia edirdi ki, dünya haqqında yeganə doğru biliyin əsasında idrak durur. Empirizmin banisi, filosof Con Lokk bundan yarım əsrdən də az müddət keçdikdən sonra kartezianlığa[1] meydan oxudu. Lokk daha sağlam nöqteyi-nəzərdən yanaşa-

---

[1] Dekartın idealizm ilə materializmi birləşdirməyə çalışan fəlsəfi nəzəriyyəsi belə adlanırdı.

raq, hesab edirdi ki, dünya barəsində yeganə doğru bilik təcrübəyə əsaslanmalıdır.

Lakin fəlsəfəyə sağlam düşüncənin əli-qolu bağlı, sakitləşdirici "dəli köynəyi"ni uzun müddət geyindirmək olmaz. Lokkun "İnsan şüuru haqqında təcrübə" kitabının meydana çıxmasından cəmi iyirmi il sonra Berkli "İnsan biliyinin prinsipləri barəsində traktat" yazaraq, fəlsəfəni hamı tərəfindən qəbul edilmiş reallıq anlayışından azad elədi. Berkliyə görə, əgər bizim biliyimiz təcrübəyə əsaslanırsa, biz yalnız öz şəxsi təcrübəmizə malikik. Yəni, əslində biz dünya haqqında biliklərə yox, yalnız öz fərdi duyğularımıza sahibik. Bəs biz dünyanı hiss etməyəndə onunla nə baş verir? Belə olan halda, o, sadəcə daha mövcud olmur.

Beləliklə, Berkli deyir ki, siz nəyi isə görmürsünüzsə, bu, sadəcə mövcud deyil. Manna sıyığını yemək, yaxud da balıq yağını içmək istəməyən balaca uşaqlar gözlərini yumanda belə fikirləşirlər. Böyüyəndə isə biz daha belə düşünmürük (həm də manna sıyığımızı yeyir və balıq yağını içirik). Lakin Berkli yox.

Onun nəzəriyyəsinə görə, əgər biz ağacları görmürüksə, yaxud da digər duyğularımızla – məsələn toxunaraq, yaxud da qoxulayaraq onu hiss etmiriksə, onlar mövcud deyillər. Bəs ağaca nə olur? Berkli dərin inanclı adam idi və hətta axırda yepiskop oldu. O, bizim hiss etmədiyimiz zaman dünyanın necə mövcud olmasına orijinal izah fikirləşmişdi. Bütün bu izahat cəmi iki bənd şeirə sığıb:

Bir dəfə bir qadın sual eylədi:
“Ya Rəbbim, qalmışam mat,
Bayırda kimsə olmayanda da
O ağaclar, o küçə
Var olaraq qalır necə?”

*(Cavab)*
“Heyrətlənmə,
Sualının cavabı var.
Baxımsız deyil ağaclar.
Kimsənin olmadığı yerdə
Kimsəsizlər kimsəsi var”.

Başqa sözlə deyilsə, biz dünyanın yalnız onu bilavasitə hiss elədiyimiz zaman mövcud olduğuna inana bilərik. Lakin biz onu bilavasitə hiss eləməsək də, dünya daim hər şeyi görən, bilən Rəbbin var olması sayəsində mövcuddur.

Berklinin empirik nəticələri (daim mövcud olan reallıq mövcud deyil) və onun bu məsələni paradoksal həlli (hər yerdə mövcud olan Rəbb) sofistikanı çox xatırladır. Müasir dünya qavrayışında belə yanaşmanı indiki elmi əsrdən çox, Orta əsrlər üçün xarakterik olan intellektual gediş kimi qəbul edərlər. Ona görə də, nüvə fizikasının da Berkli ilə eyni nəticələrə gəldiyini biləndə, bu, sizin üçün böyük sürpriz olacaq. Heyzenberqin qeyri-müəyyənlik prinsipinə görə, biz elementar hissəciyin kinetik və potensial enerjisini (yəni onun yerini) eyni vaxtda müəyyənləşdirə bilmərik. Əgər bu kəmiyyətlərdən birini müəyyənləşdirmək (yəni Berkliyə görə "hiss etmək") mümkündürsə, digər kəmiyyəti hesablamaq mümkün deyil. Beləliklə, sadə dillə deyilsə, hiss etdiyimiz yalnız bir kəmiyyəti müəyyənləşdirmək mümkündür (məsələn, hissəciyin vəziyyətini

müəyyənləşdirmək) və məhz bu kəmiyyət realdır, digəri isə (hissəciyin kinetik enerjisi, sürəti və kütləsi) bizim hansısa xarakteristika verə, hesablaya biləcəyimiz formada mövcud deyil. Biz yalnız hiss elədiyimiz kəmiyyəti "bilirik". Nəzəri olaraq, başqa (yəni onun hər şeyi görən Rəbbə agah olan) kəmiyyətin də olduğunu bilirik. Lakin biz onu hiss etmədikcə, bu kəmiyyət bizim üçün hansısa real formaya malik ola bilməz.

Berklinin fəlsəfəsi empirizmi[1] absurda gətirdi. Lakin axı, biz sağlam düşüncə əsasında ilkin şərtlərdən nəticələr çıxaranda, çox vaxt "çıxış nöqtəsi" kimi başladığımız "bu qədər aşkar" ilkin şərtlər ilə nəticələr arasında heç bir əlaqə olmur. Sağlam düşüncə – gündəlik həyatda necə davranmağa çalışmağımızdır. Lakin mövcudluğumuzdakı qarışıqlıqdan və nizamsızlıqdan qurtulub həqiqətə çatmaq istəyiriksə, çox vaxt aşkar olanı rədd eləməli oluruq. Eynşteynin bir dəfə dediyi kimi: "Sağlam düşüncə – insanda 18 yaşına qədər toplanan qərəzlər toplusudur".

---

[1] Empirizm – idrak üçün yalnız hissi qavrayışı, təcrübəni əsas qəbul edən fəlsəfi cərəyan. (Tərc. qeydi)

## Berklinin həyatı və əsərləri

Berkli fəlsəfənin inkişafına mühüm töhfə verən ilk (və son) irlandiyalı olub. O, 1685-ci il martın 12-də, Dublindən 60 mil cənub-qərbdə yerləşən Kilkenni şəhərində dünyaya gəlib. Atası köçkün royalist (İngiltərə tərəfdarı) olub, özünü yalnız "centlmen" adlandırıb, əslində isə gənc draqun zabiti idi və sonralar fermer oldu.

Corc Berkli atasının Kilkenni yaxınlığındakı fermasında, Nor çayının kənarındakı daş evdə böyüyüb. Ferma Dizert Kasl qəsrinin kalafasının yaxınlığında yerləşirdi. Bəlkə də ferma əvvəllər qəsrin əlavə tikililərindən biri olub, amma indi o da dağılıb. Mən axırıncı dəfə oraya gedəndə, Berklinin evinin yalnız yarıuçuq, üzüm tənəklərinin sarmaşdığı divarları qalırdı. Düzəngahdan o yana qəsrin uçuq qülləsi